hesabat-2019.qxd 04.05.2021 10:07 Page 1

Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

XOCAVƏND

№ 02 (95) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti Aprel 2021-ci il

# Bakıda Hərbi Qənimətlər Parkının açılışında İlham Əliyevin nitqi



- Salam cənab zabitlər.

**Hərbçilər:** - Salam.

**Prezident İlham Əliyev:** Əyləşin.

Əziz hərbçilər, bu gün sizə dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Bu mükafatlar müharibədən sonra mənim təşəbbüsümlə təsis edilmişdir. Mükafatların adlarını da özüm vermişəm - "Vətən müharibəsi qəhrəmanı" ulduzu, "Zəfər" və "Qarabağ" ordenləri yeni təsis edilmiş yüksək hərbi mükafatlardır.

Xahiş edirəm ki, təntənəli mərasimimizin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin. Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilmədi. Biz bu mərasimi Yeni Bulvarda keçiririk. Yeni Bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınmışdır. Yeni Bulvarın uzunluğu 12 kilometrdir. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərirdi, xalqa olan qayğını göstərirdi. Bu, yenilik idi, inkişaf idi, bu, bizim gücümüzün təzahürü idi. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.

Biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Ona görə bu təntənəli mərasimin burada keçirilməsində böyük rəmzi məna var. Yenilik, inkişaf, güc - bunlar əsas amillərdir. Bir də Vətən sevgisi. Çünki bax, bu bulvarın ərsəyə gəlməsində, bunun təməlində Vətən sevgisidir. Çünki bu zona əvvəllər sənaye zonası idi və burada bir çox köhnəlmiş, sıradan çıxmış müəssisələr fəaliyyət göstərirdi. Bütün bu ərazi təmizləndi, yeni bulvar salındı. Sağ tərəfdə olan boş yer də təmizlənib sərəncama götürülüb.

Bu Hərbi Qənimətlər Parkının açılışını bu gün etdim. Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.

Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər.

Otuz il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmırdı. Ancaq bizim problemlərimiz ondan daha əvvəl başlamışdı, daha dəqiq desəm, 1987-ci ildə. Çünki 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi - Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdir ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya erməniliyinin əsas hədəfi Heydər Əliyev idi. Çünki bilirdilər, o, nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın. Necə ki, 1970-1980-ci illərdə Azərbaycana rəhbərliyi dövründə bütün separatçı meyillərin qarşısı elə yerindəcə alınırdı. İndi tarixə baxın, sanki heç nə dəyişilməyib. Sovet vətəndaşı, özünü akademik sayan Fransada bu açıqlamanı verir və artıq bu mövzu ortalığa atılır. Biz yaxşı xatırlayırıq ondan sonra hansı proseslər baş vermişdi. Faktiki olaraq Dağlıq Qarabağı Azərbaycandan ayırmışdılar. Xüsusi idarəetmə komitəsi yaradılmışdı. Moskvadan bir adam göndərilmişdi. O da sırf ermənipərəst bir adam idi. Faktiki olaraq bizim problemlərimiz o vaxtdan başlamışdır. O vaxt Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparılırdı. Bütün bunları yaşlı nəsil yaxşı xatırlayır.

Müstəqillik əldə olunandan sonra nələr baş verdi? Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. Ondan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü.

Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü. Xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar var. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər. Ordunu gücləndirmək, ordumuza dəstək vermək əvəzinə, ancaq öz hakimiyyətini möhkəmləndirirdilər. Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına. Onlar isə buradan Naxçıvana hərbi desant göndərirdilər ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. O vaxt Daxili Qoşunların komandanı, bu gün xaricdə gizlənən bir tula, oraya desant göndərdi. Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırlar. Bunlar Xalq Cəbhəsi-Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşə-düşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün, bir il ərzində nə qədər böyük ziyan vurdular - torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanını tökdülər. Ona görə, mən deyəndə ki, bunlar xəyanətkardırlar, satqındırlar, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanında da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil.

Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qaydaqanun yaradıldı və nizami ordu quruculuğu başlandı.

Mən 2003-cü ildə hakimiyyətə gələrək, Prezident vəzifəsinə başlayaraq söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim. Azərbaycanın ərazi bütövlüyü 17 il ərzində qorundu. Düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi. Halbuki təzyiqlər də olmuşdur, təhdidlər də olmuşdur. Mənə qarşı çevriliş cəhdləri olmuşdur. 2003-cü ildə Azadlıq meydanında AXC-Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da "narıncı inqilab" dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15-17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır. Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi.

*(Davamı 3-cü səhifədə)*



# Azərbaycan tarixi torpaqlarını işğaldan azad etməklə xüsusilə qonşu və region dövlətləri üçün yeni reallıqlar yaradıb

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti eyni soykökə malik xalqların və dövlətlərin bir-birilə əməkdaşlığı və yeni əlaqələrin qurulması baxımından çox vacibdir. Bu nöqteyi-nəzərdən mart ayının 31-də keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-formal Zirvə görüşü mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Zirvə görüşündəki çıxışını işğaldan azad olunan torpaqlarımıza həsr etməsi ölkə başçısının bütün platformalarda ölkənin milli maraqlarını hər şeydən üstün tutduğunun növbəti təzahürüdür.

Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyinin pandemiya dövrünə təsadüf etdib. Buna baxmayaraq, Azərbaycanın Şuraya sədrliyi dövründə qurumun fəaliyyətində ciddi aktivlik müşahidə olunub. 2009-cu ildə Naxçıvan sazişinin imzalanması ilə yaranan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bu gün dünyada kifayət qədər nüfuzlu və özünütəsdiq etmiş bir qurum kimi fəaliyyət göstərir. 2019-cu il oktyabrın 15-də Bakıda keçirilən Zirvə görüşündə rəhbərliyin Azərbaycana keçməsi ilə qurum COVİD-19 pandemiyası ilə mübarizədə və bir çox önəmli qlobal problemlərin həllində təşəbbüskar mövqedən çıxış edib. Bu, özlüyündə qlobal həmrəylik və əməkdaşlıq nümunəsi idi.

Azərbaycan tarixi torpaqlarını işğaldan azad etməklə xüsusilə qonşu və region dövlətləri üçün yeni reallıqlar yaradıb. Bununla yanaşı, 30 il ərzində Ermənistanın tutduğu mövqe bütün regionun inkişafına öz mənfi təsirini göstərib və təəssüf ki, beynəlxalq təşkilatlar da bu məsələdə kifayət qədər təsirli ola bilməyib. Beləki, rəsmi İrəvanın ötən illər ərzində yürütdüyü siyasət münaqişəni beynəlxalq hüquq müstəvisində sülh vasitəsilə həll olunmasını mümkünsüz etdi. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər. Ancaq bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası - dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Bu qətnamələr 1993-cü ildə qəbul edilmişdir və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar-qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi. Halbuki real, praktiki müstəvidə məsələnin həllinə xidmət etmirdi. ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

# Xocavənd Rayon İcra Hakimiyyətində videomüşavirə keçirilib



Müşavirədə Rayon İcra Hakimiyyəti başçısı Eyvaz Hüseynov, inzibati ərazi dairələri üzrə nümayəndələr, idarə və təşkilat müdirləri iştirak ediblər. Online müşavirədə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov bildirdi ki, hazırda dünyanın ən böyük problemi olan koronavirus pandemiyasının qarşısının alınması məqsədilə bütün dövlətlər qabaqlayıcı tədbirlər görür, virusun təsirinin azaldılması üçün addımlar atırlar. Dünyada "COVİD-19" infeksiyasının artım tempi, insanlar və bəşəriyyət üzərindəki fəsadları hər birimizin gözləri önündə cərəyan etməkdədir.

Dünya ölkələrində olduğu kimi, ölkəmizdə də əhalinin təhlükəsizliyi və sağlamlığının qorunması üçün effektiv, ən təxirəsalınmaz tədbirlər uğurla həyata keçirilir. Ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə təhlükəli virusdan vətəndaşlarımızın sağlamlığının qorunması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması ilə bağlı görülən mühüm işlər uğurlu nəticələrini göstərməkdədir.

Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesi uğurla davam etdirilir. Bundan sonra da bu işlərdə əhali arasında maarifləndirmə işini artırmalı, əhalinin onlayn növbə götürmələrinə, peyvənd olunmaq üçün məntəqələrə gəlmələrinə köməklik göstərilməlidir. Eyni zamanda ərazilərdə karantin rejiminə əməl olunmasına diqqət artırılmalı, kütləvi tədbirlərin qarşısı alınmalı, əhalinin tibbi maskalardan istifadəsinə nəzarət gücləndirilməlidir.



# Şəhid doğum günündə yad edildi

27 aprel 2021-ci il tarixində Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Xocavənd rayon Əmirallar kənd sakini Fərəcov Zülfüqar Müseyib oğlunun doğum günü münasibətilə Xocavənd qəsəbəsində yerləşən Şəhidlər məzarlığında anım tədbiri keçirilmişdir. Tədbir iştirakçıları öncə şəhidlərin məzarları önünə qərənfillər düzmüş, onların əziz xatirəsinə ehtiramlarını bildirmişlər. Daha sonra canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin xatirələri bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə Şəhidin orta məktəb illərində müəllimi olmuş T. Balakişiyeva çıxış edərək onun uşaqlıq və məktəb illərindən danışmış, Şəhidin döyüş yoldaşları və qazilər çıxış edərək onunla bağlı xatirələrini bölüşmüş, bir döyüşçü kimi qəhrəmanlıqlarından söz açmışlar. Sonda Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək 44 gün davam edən Vətən müharibəsinin tarixi qələbəmizlə başa çatmasında Şəhid və Qazilərimizin, ümumilikdə müzəffər Azərbaycan ordusunun böyük rəşadəti hesabına mümkün olduğunu bildirdi .E.Hüseynov Vətən müharibəsində qəhrəmancasına döyüşərək müqəddəs şəhidlik zirvəsinə ucalmış Fərəcov Zülfüqar Müseyib oğlunun döyüş yolu barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Şəhidin valideynlərinə və ailə üzvlərinə başsağlığı verərək, belə qəhrəman övlad böyütdükləri üçün onlara öz minnətdarlığını bildirmişdir. Başçı Zülfüqar kimi qəhrəman övladların igidliyi, qəhrəmanlığı, şücaəti nəticəsində 30 illik vətən həsrətinə son qoyulduğunu tədbir iştiraçılarının diqqətinə çatdırmışdır.

Şəhid Zülfüqar Fərəcovun yaxınları və ailə üzvüləri övladlarının qəhrəmanlığı ilə fəxr etdiklərini bildirmiş, Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər. Sonda rayon məktəblilərinin hazırladıqları bədii kompazisiya nümayiş olunmuşdur.

Xatırladaq ki, Fərəcov Zülfüqar Müseyib oğlu 28 sentyabr 2020-ci il tarixdə cəbhənin Füzuli rayonu istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərərək Şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Allah rəhmət eləsin.

# Şəhidimizin xatirəsi yad edilib



Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Füzuli rayonunun Dilağarda kəndindən olan Nüsrətli Ceyhun Aqil oğlunun doğum günü münasibətilə 08 aprel 2021-ci il tarixində Xocavənd qəsəbəsində yerləşən Şəhidlər məzarlığında anım tədbiri keçirilib. Tədbir iştirakçıları öncə şəhidlərin məzarları önünə qərənfillər düzmüş, onların əziz xatirəsinə ehtiramlarını bildiribər. Daha sonra canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunaraq, xatirələri bir dəqiqəlik sükutla yad edilibdir.

Tədbirdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək bildiribdir ki, Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin əmri ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başlamış və 44 gün davam edən Vətən müharibəsi rəşadətli Ordumuzun qələbəsi ilə başa çatmışdır.

Eyvaz Hüseynov Şəhidin valideynlərinə və ailə üzvlərinə başsağlığı verərək, belə qəhrəman övlad böyütdükləri üçün minnətdarlığını bildiribdir. Başçı, Nüsrətli Ceyhun kimi qəhrəman övladların igidliyi, qəhrəmanlığı, şücaəti nəticəsində 30 illik vətən həsrətinə son qoyulduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıbdır.

Ağdərə istiqamətində döyüşlərdə iştirak edən Nüsrətli Ceyhun, 30.09.2020-ci il tarixində xüsusi şücaət göstərərək Şəhidlik zirvəsinə yüksəlir. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilibdir.

Allah rəhmət eləsin.

hesabat-2019.qxd 04.05.2021 10:07 Page 3



# Bakıda Hərbi Qənimətlər Parkının açılışında İlham Əliyevin nitqi

*(Əvvəli 1-ci səhifədə)*

Bütün təzyiqlərə, bütün cəhdlərə, - ondan sonra da cəhdlər olmuşdu, - baxmayaraq, Qarabağ məsələsində bir faiz güzəştə getmədim. Bunun əksinə, 2003-cü ildə Prezident seçiləndən sonra demişdim ki, artıq nə danışılıb, qalsın kənarda. Mən bunu tanımıram. Sıfırdan başlamalıyıq danışıqlara, sıfırdan. Bütün təzyiqlərə baxmayaraq, buna nail oldum. Məhz bunun nəticəsində Madrid prinsipləri ortalığa çıxdı. Bəli, Madrid prinsipləri bizi tam qane etmirdi. Mən bunu gizlətmirəm. Ancaq Madrid prinsiplərinin əsasında bizim torpaqlarımızın azad edilməsi nəzərdə tutulurdu. Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi. Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. Çünki mən bu vəzifəyə təzə seçilmişdim, hələ böyük siyasətin, riyakarlığın nə dərəcədə geniş vüsət almasından xəbərsiz idim. Hesab edirdim ki, kim, hansı tərəfmüqabil nəyi deyirsə, o da həqiqətdir. Sonra anladım ki, bütün bu illər ərzində bizi aldatmağa çalışmışlar. Məsələni həll etmək yox, dondurmaq istəmişdilər. Bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq qurumlar bu torpaqları erməni tapdağının altında daim saxlamaq istəmişdilər. Onu sonra anladım.

Ancaq bununla paralel olaraq danışıqlar apararaq, eyni zamanda, hazırlıq işləri də gedirdi. Mən bunu gizlətmirdim. Dəfələrlə demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz bunu hərbi yolla həll edəcəyik. Nəticədə də belə oldu. Nə demişəmsə, onu da etmişik. Bütün bu illər ərzində demişdim ki, bizim torpağımızda heç vaxt ikinci erməni dövləti yaradıla bilməz. Demişdim ki, birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıbdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam. Demişəm ki, bu xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi malalamamalıyıq, bilməliyik tarixi. Bilməliyik, 1918-1920-ci illərdə ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi, müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generallar burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar. Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik - kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir.

Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

İkinci Qarabağ müharibəsinə hazırlaşmalı idik və hazırlaşdıq. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi. Mən bu barədə əvvəlki illərdə danışarkən bəziləri hesab edirdi ki, bəli, bunlar qəbul olundu, amma bunun nəticəsi yoxdur. Bu gün gördük bunun nəticəsini, hər kəs gördü bunun nəticəsini. BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi, ondan başqa ciddi bir sənəd yox idi. BMT Baş Assambleyasının qərarı, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti. Avropa Şurası Parlament Assambleyası həmişə bizə düşmənçilik mövqeyi sərgiləyir, hətta onlar da məcbur olub ərazi bütövlüyümüzə dəstək nümayiş etdiriblər. Bütün bunlar siyasi və hüquqi baza yaradıbdır. Əgər bu, olmasaydı, müharibə dövründə bizə qarşı Minsk qrupuna həmsədrlik edən ölkələrin BMT-dəki təşəbbüsü nəticə verə bilərdi. Bunu da hər kəs bilsin, bir çoxları bilmir. Müharibə gedə-gedə bizə qarşı sanksiyalar tətbiq etmək istəyirdilər. Biz öz torpağımızda vuruşuruq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik. Bizə qarşı sanksiyalar tətbiq etmək ədalətsizlikdir, vicdansızlıqdır. Kim idi bunları təşkil edən? Minsk qrupuna həmsədrlik edən ölkələr. Kim bunun qarşısını aldı? Bizə dost olan ölkələr, Qoşulmama Hərəkatına üzv olan ölkələr. Çünki biz Qoşulmama Hərəkatının sədri kimi özümüzü ləyaqətlə aparmışıq, bu ölkələrə kömək etmişik, həm maliyyə yardımı göstərmişik, həm də humanitar yardım. COVID ilə bağlı 30-dan çox ölkəyə humanitar, maliyyə yardımı göstərmişik. Onların maraqlarını müdafiə etmişik və onlar da, öz növbəsində, bizə dəstək verdilər. Düzdür, hər hansı bir qətnamə qəbul olunsaydı belə, bizi dayandıra bilməzdi. Heç kim və heç nə bizi dayandıra bilməzdi. Mən müharibə dövründə dəfələrlə xalqa müraciət edərək demişdim, rədd olsun düşmən bizim torpağımızdan, mən müharibəni dayandıraram. Ona görə beynəlxalq müstəvidə hazırlıq aparılmalı idi. İqtisadi sahədə hazırlıq aparılmalı idi. Əgər biz hansısa bir ölkədən və yaxud da ki, hansısa beynəlxalq maliyyə qurumundan asılı olsaydıq, müharibəni apara bilərdikmi? Əlbəttə ki, yox. Bizə min cür təzyiq edəcəkdilər, bizi təhdid edəcəkdilər, imkanlarımızı kəsəcəkdilər.

İqtisadi müstəqillik əsas məsələlərdən biri idi. Ona da nail olduq. Enerji müstəqilliyinə nail olduq. Tarixi layihələri həyata keçirdik. 2006-2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər, o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı. Vəsait yoxdursa, silah da olmayacaqdı. Silahları bizə heç kim bağışlamayıb. Ermənistandan fərqli olaraq 5 milyard dolları heç kim hədiyyə eləməyib. Onların məhv edilmiş və qənimət götürülmüş silahlarının dəyəri 5 milyard dollardır. Biz pulla almışıq, iqtisadi müstəqillik olmasaydı, necə ala bilərdik? Müharibəni necə apara bilərdik? Torpaqlar erməninin tapdağı altında əbədi qala bilərdi. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi. Mən nə qədər təzyiqlə üzləşdim - yox, bu xətt Ermənistan üzərindən keçməlidir, dəmir yolu Ermənistan üzərindən keçməlidir. Bakı-Tbilisi-Qars inşa edilməməlidir, biz buna kredit verməyəcəyik. Dedim, vermirsən, cəhənnəmə verme. Mən özüm Gürcüstana 725 milyon dollar kredit vermişəm. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu, özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlanmışdı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymaz. Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun, həm o illərdə, xüsusilə indi. Beləliklə, Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq.

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib. Əlbəttə ki, ilk növbədə, ordu quruculuğu. Ordunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, peşəkarlığı, xidmət şəraiti, hərbçilərin məişət şəraiti yaxşılaşdırıldı. Elə güclü ordu yaratmışıq ki, beynəlxalq reytinqlərdə həmişə 50-ci yerlərdə idik, indi müharibədən sonra təbii ki, daha da yüksək yerlərə qalxacağıq. Müharibə dövründə gücümüzü göstərdik.

Biz Ermənistana şans verirdik. Hələ 2016-cı ildə Aprel döyüşləri zamanı şans verdik. Ovaxtkı xunta başçısı Sarkisyan acı məğlubiyyətdən sonra mənə torpaqları bizə qaytarmaq sözü vermişdi. O vaxt Aprel döyüşləri gedə-gedə onlar gecə-gündüz Moskvaya, Rusiyanın Baş qərargah rəisinə zəng edirdilər ki, Azərbaycana deyin müharibə dayansın, yalvarırdılar. Biz o şərtlə dayandırdıq ki, dərhal danışıqlar başlasın və başlamışdır. Müharibə dayanandan bir ay sonra Vyanada artıq Minsk qrupunun həmsədr ölkələrinin xarici işlər nazirləri səviyyəsində görüş keçirilmişdir. Nə üçün o vaxta qədər bu səviyyədə görüş keçirilmirdi? Amma Aprel döyüşlərində biz ermənilərin başına bir zərbə vurandan sonra dərhal may ayında görüş keçirildi. İyun ayında Rusiyada Zirvə görüşü keçirildi. Sarkisyan mənə söz vermişdi ki, ona iki həftə vaxt lazımdır. Mən söz verirəm ki, bunu həll edəcəyəm. Dedim yaxşı, çıxdı getdi. Ondan sonra orada ya özləri təşkil etmişdilər, ya da özü-özlüyündə belə bir hadisə baş vermişdir, polis bölməsini zəbt etmişdilər. Bunu bəhanə gətirərək imtina etdi. Yenə də bizi aldatdılar. Tək Sarkisyan yox, onların hamısı. 2018-ci ildə Naxçıvan əməliyyatı, yenə də onlara dərs verdik, yenə də göstərdik ki, axırı pis olacaq, məhv edəcəyik sizi. O da dərs olmadı. O da düşdü hakimiyyət dəyişikliyinə. Ermənistana təzə hakimiyyət gəlmişdi. Ondan bir ay sonra biz Naxçıvanda sərhəddə uğurlu əməliyyat keçirərək önəmli strateji yerləri götürmüşdük və artıq Qarabağa gedən yola tam nəzarət edirdik. Müharibə dövründə, - indi bu, sirr deyil, - bilirdik ki, Dağlıq Qarabağa nə aparılır. İstənilən an o yolu kəsə bilərdik. Sadəcə olaraq, buna ehtiyac yox idi. O da dərs olmadı. Ondan sonra yeni hakimiyyət bizdən vaxt istədi. Dedi ki, vaxt verin biz burada daxili problemləri, köhnə xunta nümayəndələrinin problemlərini həll edək, biz həll edəcəyik. Bizi yenə də aldatdılar. Ondan bir il sonra Ermənistanın baş naziri Dağlıq Qarabağda demişdi ki, "Qarabağ Ermənistandır". Bu, nə deməkdir? O deməkdir ki, danışıqlar qurtardı, mənasızdır. Bu, danışıqların sonu idi. Təxribat xarakterli digər addımlar, hərəkətlər, çıxışlar göstərirdi ki, Ermənistan torpaqları qaytarmaq istəmir. Azad edilmiş torpaqlarda gördüyümüz mənzərə, sizin dəf etdiyiniz o təmas xətləri, o müdafiə xətləri göstərir ki, bir qarış torpaq vermək istəmirdilər. Başımızı aldatmaq, öz himayədarlarına arxalanmaq, onlardan müftə silah almaq, siyasi dəstək almaq, onların ölkələrində yaşayan lobbiçilərdən istifadə etmək və bizi bu vəziyyətdə əbədi saxlamaq - bu idi onların niyyəti. Ondan sonra iyul ayında dövlət sərhədində təxribatlar törədildi, avqust ayında diversiya qrupu göndərildi və sentyabr ayında artıq İkinci Qarabağ müharibəsi başlamışdır.

Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü var. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat verəcəyik. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərmişdir, peşəkarlıq, qəhrəmanlıq öz yerində, mənəvi ruh. Onlar bizi görəndə qabağımızdan qaçırdılar, biz onları hər gün qovurduq.

Bütün əməliyyatlar düşünülmüş şəkildə aparılmışdır. Gün ərzində görülmüş işlər hər gün mənə məruzə edilirdi, müşavirələr keçirilirdi, növbəti gün ərzində görüləcək işlərin planı tutulurdu. Deyə bilərəm ki, nəzərdə tutduğumuz bütün məsələlər əksər hallarda öz həllini tapdı. Əlbəttə, bəzi yerlərdə yubanmalar oldu, bəzi yerlərdə daha da tez, yaxud da ki, daha da böyük həcmdə əməliyyat aparıla bilərdi. Ancaq bu, müharibədir, onu planlaşdırmaq mümkün deyil. Hər gün bizim hərbçilərimiz öz həyatını risk altına atırdılar. Çünki o istehkamları, o müdafiə xətlərini keçmək həm peşəkarlıq, güc və həm də cəsarət tələb edirdi. Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Mən bunu hələ bir neçə il bundan əvvəl bir beynəlxalq tədbirdə demişdim. Hansısa erməni mənə sual vermişdi ki, orada snayper müharibəsi gedir, yaxud da erməni əsgərləri ölür. Dedim ki, ölmək istəmirsə, rədd olsun bizim torpağımızdan. Müharibə dövründə dəfələrlə demişdim, Ermənistan rəhbəri mənə tarix versin ki, bizim torpağımızdan nə vaxt rədd olur, həmin an biz müharibəni dayandırıraq. Belə də oldu. 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi, Ermənistan ordusunun beli qırıldı, Ermənistan ordusu məhv edildi. On min fərarisi olan ordu biabırçılıq və rəzalətdir. Onlar öz əsgərlərini döyüş məntəqələrində zəncirlərlə bağlayırdılar ki, qaçmasınlar. Bu, vəhşilikdir, öz əsgərinə qarşı vəhşilikdir.

Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir? Vəhşi, hələ bəlkə də vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək.

İndi azad edilmiş torpaqlara ezam olunan insanlar və xarici qonaqlar hər şeyi öz gözləri ilə görürlər. Biz bütün azad edilmiş torpaqları bərpa edəcəyik. Sadəcə olaraq, biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu, həm bizim üstünlüyümüzdür, eyni zamanda, qarşısında vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşlarından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, dəmir yumruq yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq.

Bu təntənəli mərasim bu gün keçirilir. Bunun səbəbləri yəqin ki, sizə bəllidir. İlk növbədə, bu yeni hərbi mükafatlar hazırlanmalı idi, onlar yox idi. Onların dizaynı hazırlanmalı idi, onların hazırlanması təşkil edilməli idi. Bu, vaxt apardı. Eyni zamanda, pandemiyaya görə qapalı yerlərdə belə mərasimlərin keçirilməsi mümkün deyil və hava şəraiti də uyğun olmalı idi. Bir də ki, Hərbi Qənimətlər Parkı hazır olmalı idi. Mən istəyirdim ki, biz Parkın açılışı günündə görüşək və bu yüksək mükafatlar sizə təqdim edilsin və Parkın ilk ziyarətçiləri siz olasınız. Buna görə bir qədər vaxt apardı. Ancaq bu gün bu mərasim keçirilir. Sizə Ali Baş Komandan kimi dərin təşəkkürümü bildirmək istəyirəm. Siz xalqımızın üzünü ağ etmisiniz, dünya azərbaycanlılarının üzünü ağ etmisiniz. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Yaşasın Azərbaycan!

hesabat-2019.qxd 04.05.2021 10:07 Page 4



# Böyük fəlakətlərə səbəb olmuş siyasi xəyanətkarlıq



Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. Ondan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü. Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü. Xaos, anarxiya, özbaşınalıq, hərcmərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar var. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər. Ordunu gücləndirmək, ordumuza dəstək vermək əvəzinə, ancaq öz hakimiyyətini möhkəmləndirirdilər. Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına. Onlar isə buradan Naxçıvana hərbi desant göndərirdilər ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. O vaxt Daxili Qoşunların komandanı, bu gün xaricdə gizlənən bir tula, oraya desant göndərirdi. Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırlar. Bunlar Xalq Cəbhəsi-Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşə-düşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün, bir il ərzində nə qədər böyük ziyan vurdular - torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanını tökdülər. Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qayda-qanun yaradıldı və nizami ordu quruculuğu başlandı. 2003-cü ildə Azadlıq meydanında AXC-Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək idi. Bütün "narıncı inqilablar" xalqların və dövlətlərin tənəzzülü ilə bitmişdir. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15-17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

# Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq



Böyük qələbə həm Azərbaycan, həm də qonşu dövlətlər qarşısında yeni imkanlar açdı. İşğaldan azad edilmiş ərazilərimizdə qurulacaq nəqliyyat-logistika imkanları, əlbəttə ki, ilk növbədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasını təmin edəcək.

Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə çıxış edən Qazaxıstanın birinci Prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev də vurğuladı ki, İkinci Qarabağ müharibəsi ilə bağlı bəyanatın imzalanması böyük İpək yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunu artırır.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev isə bir daha tərəfdaş ölkələrə mesaj ünvanlayaraq işğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni nəqliyyat dəhlizinin imkanlarından yararlanmağa çağırdı. Azərbaycanın artıq Zəngəzur dəhlizi üzərində çox fəal iş apardığını deyən İlham Əliyev bəyan etdi ki, işlər yekunlaşdıqdan sonra qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda digər ölkələr üçün əlavə imkanlar yaradacaq.

Prezident məğlub Ermənistana da o yolu göstərdi. Bildirdi ki, bu imkanlardan Ermənistan da yararlana bilər. Çünki bu ölkənin hazırda müttəfiq olduğu Rusiya və qonşu olduğu İranla dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən keçə bilər: "Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

Göründüyü kimi, böyük qələbə həm də ölkəmiz qarşısında geniş iqtisadi imkanlar açıb. İlham Əliyevin yeni inkişaf konsepsiyası əsasında reallaşacaq yeni qlobal layihələr Azərbaycana iqtisadi və siyasi dividendlər gətirəcək.

***Xocavənd Rayon İcra Hakimiyyəti***



# Rəsmi İrəvanın 30 illik işğalçı siyasəti bütün regionun inkişafına manеə olub

Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ regionu və ona bitişik ərazilər uğrunda təxminən 44 gün davam etmiş müharibə Cənubi Qafqazda hərbi və siyasi sahələrdə qüvvələr nisbətinə tektonik dəyişikliklər gətirdi. Azərbaycan 44 gün ərzində yalnız hərb meydanında deyil, siyasətdə, diplomatiyada və informasiya savaşında da xariqələr yaratdı. Prezident İlham Əliyev çoxşaxəli intensiv fəaliyyəti ilə böyük tarixi dəyişikliyə imza atdı. Azərbaycana məğlub olan işğalçı ölkə kapitulyasiya aktı imzalamağa məcbur edildi. Ermənistanın 30 illik işğal siyasətinə son qoyuldu. Regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq dənizi və Xəzər dənizi hövzələrini birləşdirən "həyat yolu"nun reallaşdırılması yeni inkişaf perspektivləri vəd edir. Bu bağlılıqda məsələyə geniş geosiyasi aspektdə təhlili yanaşdıqda çox maraqlı və aktual məqamlar üzə çıxır. Xüsusən Azərbaycan Prezidentinin liderlik modeli və Ali Baş Komandan kimi fəaliyyəti ön plana çıxır. Həmin kontekstdə regional miqyasda formalaşan yeni geosiyasi reallığı analiz etmək ciddi aktuallıq kəsb edir. Azərbaycan faktiki olaraq konfrontasiya geosiyasi xəttini sındırıb, regionu əməkdaşlıq və təhlükəsizlik geosiyasi müstəvisinə çıxardı. Bunun tarixi, siyasi, sosial, mədəni, iqtisadi və hərbi-strateji nəticələri özünü göstərməkdədir.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

hesabat-2019.qxd 04.05.2021 10:07 Page 5



*Azər Süleymanov:*

# "Qarabağ Dirçəliş Fondunun yaradılması milli birliyin qorunmasına institusional töhfədir"



Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində bizi 30 ilə yaxın həsrətlə gözlədiyimiz Qarabağ torpaqlarına qovuşdurdu. Hazırda işğaldan azad edilmiş torpaqların yenidən qurulması qarşımızda duran ən mühüm məsələlərdən biridir. Artıq bir müddətdir ki, dövlətimiz tərəfindən Qarabağda yenidənqurma işlərinə başlanılıb. Əsas hədəf işğaldan azad edilmiş ərazilərimizin müasir səviyyədə qurulmasıdır. Cənab Prezidentin "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası da buna xidmət edir. "Bizim arzumuz budur ki, bütün şəhərlərimiz ən müasir tələblərə cavab verəcək şəkildə qurulsun və inanırıq ki, belə də olacaq. Eyni zamanda, ilk növbədə təhlükəsizlik təmin olunmalıdır ki, doğma yurdlarına qayıdan insanlar özlərini rahat, təhlükəsiz hiss etsinlər. Bunu Cocuq Mərcanlı qəsəbəsinin timsalında da görə bilərik. Böyük qayıdışın ilk müjdəsi olan bu qəsəbənin inşası böyük sürətlə və müasir tələblərə cavab verməklə həyata keçirildi. Cənab Prezident İlham Əliyev qəsəbənin açılışında mühüm bəyanatlar verdi və hədəflərimizi diqqətə çatdırdı. Və bu gün biz həmin hədəflərimizin ən əsasına - torpaqlarımızın işğaldan azad edilməsinə nail olmuşuq. Növbəti hədəfimiz isə azad edilmiş ərazilərimizi qurub yaratmaqdan ibarətdir.

Qarabağda quruculuq işlərini elə həyata keçirməliyik ki, ermənilər bir daha doğma Qarabağımıza əl uzada bilməsin. Görülən işlərin əsas hədəflərindən biri də məhz bundan ibarətdir. Böyük qayıdışda, Qarabağın bərpasına hamımızın töhfəsi olmalıdır. Bu baxımdan, Qarabağ Dirçəliş Fondunun yaradılması böyük əhəmiyyət kəsb edir. Fondun yaradılması milli birliyin qorunmasına institusional töhfədir. Qarabağ Dirçəliş Fondu xalqımızın öz dövlətinin yanında olduğunu göstərməsi üçün bir platformadır, birliyimizin rəmzidir. Həmvətənlərimiz həmin Fonda böyük həvəslə müəyyən məbləğdə vəsaitlər köçürmələri təkcə maddiyyatla bağlı olmayacaq, eyni zamanda, milli-mənəvi birliyimizi möhkəmləndirəcək, Vətən, torpaq, yurd sevgisini daha da artıracaq. Fondun hesabına vəsait köçürənlər bərpada paylarının olması ilə daim fəxr edəcəklər. Çünki onlar hər biri həsrətlə gözlədiyimiz Qarabağın yenidənqurma və bərpa işlərində iştirakçı olacaqlar. Ümumilikdə, bu Fondun yaradılması və fəaliyyəti dövlətin Qarabağ siyasətinin təzahürüdür. Hazırda dövlətimizin Qarabağ siyasətinin konkret təzahürü olan bu Fondun xətti ilə mərkəzləşdirilmiş qaydada görüləcək işlər nəticəsində ərazilərimiz tamamilə yenidən qurulacaq, orada infrastruktur yaradılacaq, müasir şəhər, qəsəbə və kəndlər tikiləcək, bölgəyə dinc, təhlükəsiz, rahat həyat gələcək, məcburi köçkünlərimiz daimi yaşayış yerlərinə qayıdacaqlar. Dirçəliş prosesində yeni iş yerləri açılacaq, ölkə həyatının bütün digər sahələrində də sürətli inkişafa nail olunacaq. Bütün bunlar insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına da töhfə verəcək.

***Azər Süleymanov,***
***YAP Xocavənd Rayon Təşkilatının sədri***



# Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi

Ölkələr və xalqlar arasında dözümsüzlük təlqin edən bu cür yanaşmalar ayrı-ayrı regionların və ümumilikdə bəşəriyyətin dayanıqlı sülhpərvər inkişafına təhdid törədir. Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanat yayıb. Sputnik Azərbaycan-a daxil olan bəyanatda deyilir: "Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi bütün dövrlərdə müxtəlif təxribatlara əl atıb. Onilliklər ərzində erməni təbliğat maşını və onun havadarları Osmanlı imperiyasında ermənilərə qarşı "soyqırımı" törədildiyini sübut etməyə və bütün dünyanı buna inandırmağa cəhd göstərib. Həqiqət isə odur ki, Birinci Dünya müharibəsi zamanı çətin döyüş şəraiti, daxili münaqişələr, aclıq və xəstəliklər üzündən çoxlu sayda erməni həyatını itirib. Lakin məqsədyönlü şəkildə unudulur ki, həmin dövrdə ermənilərdən daha çox türklər həlak olub.Əgər məqsəd tarixi faktların obyektiv araşdırılmasıdırsa, siyasi məqsədlərə görə tarixi reallıq təhrif edilməməli və iş bu sahədə ixtisaslaşdırılmış beynəlxalq tədqiqat institutlarına, həmçinin tanınmış tarixçilərə həvalə edilməlidir. Türkiyə öz arxivlərini tarixçilərə açmağa hazır olduğunu dəfələrlə bildirib və həqiqəti üzə çıxarmaq naminə birgə komissiyanın yaradılması təklifini irəli sürüb.

Rəsmi İrəvanın məkrli siyasətinin arxasında onlara təzminat ödənilməsi və Türkiyə ərazisinin bir hissəsinin Ermənistana verilməsi kimi cəfəng tələb və iddialar durur. Erməni ədəbiyyatında Türkiyənin şərq əyalətlərinin "Qərbi Ermənistan" adlandırılması da həmin iddiaların rəsmiləşdirilməsinə xidmət edir.Ermənistanın tarixi faktların saxtalaşdırılması və ekspansiya siyasəti yalnız qardaş Türkiyəyə qarşı deyil, uzun illər ərzində Azərbaycana qarşı da həyata keçirilib. Təkcə 1918-ci ilin mart soyqırımı zamanı 12 mindən çox türk-müsəlman öldürülüb. Onların çoxunun meyitləri tapılmayıb. XX əsrin digər faciəsi Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən 7 min əhalisi olan Xocalı şəhərində amansız cinayət törədildi. Baş vermiş bu faciələr təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdəndir. Aqressiv erməni siyasətinin bariz təcəssümü olan bu cinayətlərin uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almaması ikili standartlar siyasətinin təcəssümüdür.Son dövrlər qondarma "erməni soyqırımı" iddialarının dünya gündəmində yer almasının səbəbkarı təkcə Ermənistan və erməni lobbisi deyil, həmçinin regionla bağlı imperialist maraqlar güdən qlobal güclərdir. Qondarma "erməni soyqırımı" anlayışı yalnız siyasi təzyiq alətidir və ikili standartlar siyasətinin təzahürüdür. Yaxşı olardı ki, "tarixi həqiqətlər axtarışı"nda olan qüvvələr erməni millətçilərindən Mərkəzi Anadoluda törətdikləri amansız qətllərin hesabını istəyərdilər.Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar hər zaman qardaş Türkiyənin yanında olduqlarını bildirir və xəstə erməniçilik idealları bəsləyən ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsinə dair mövqeyini qətiyyətlə pisləyirlər. Ölkələr və xalqlar arasında dözümsüzlük təlqin edən bu cür yanaşmalar ayrı-ayrı regionların və ümumilikdə bəşəriyyətin dayanıqlı sülhpərvər inkişafına təhdid törədir".

***Xocavənd Rayon İcra Hakimiyyəti***

hesabat-2019.qxd 04.05.2021 10:07 Page 6






# "YAŞAT" Fondu dövlətin institusional təşəbbüsü olaraq öz fəaliyyətində humanitar missiyanı ehtiva edir

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə YAŞAT Fondu yaradılıb. Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılmasıdır. Eyni zamanda bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi Fondun əsas istiqamətlərindəndir. Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi istiqamətində dövlətin səmərəli fəaliyyətini daha mütəşəkkil şəkildə təqdim etməkdən ibarətdir. Paralel olaraq, bu məqsədlərə çatmaq üçün Fondun fərmandan irəli gələn vəzifələrindən biri də vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq hesabatlılığın və ictimai nəzarətin təmin edilməsindən ibarətdir. Bu da özlüyündə həm Fondun maliyyə resurslarının xərclənməsi baxımından şəffaflığın yaradılması, həm də cəmiyyət tərəfindən Fondun fəaliyyətinin izlənilməsi nöqteyi-nəzərindən çox önəmli və xüsusi mahiyyətə sahib bir məqam kimi qiymətləndirilmədilir.- Böyük humanitar missiyanı özündə ehtiva edən YAŞAT Fonduna könüllü ödəmələr dayanmadan davam edir və toplanan vəsait şəhid ailələrinin, qazilərimizin ehtiyaclarına sərf olunur. Ümumilikdə, Fond ötən dövr ərzində Azərbaycanın bütün ərazilərində, elə mənim Milli Məclisdə təmsil etdiyim Sabirabad rayonu ərazisində kifayət qədər genişmiqyaslı işlərilə yadda qalıb. Şəhid ailələrinin və müharibədə yaralanan əsgərlərimizin istər sosial rifahının və ailə-məişət şəraitinin yaxşılaşdırılması, istərsə də övladlarının təhsil almaları üçün müvafiq dövlət qurumları qarşısında məsələnin qaldırılması və həlli istiqamətində əməli addımlarla yadda qalıb. Ötən dövrdə Fond tərəfindən görülən bu işlərə görə millət vəkili olaraq Sabirabad ictimaiyyəti adından təşəkkür edir, yüksək fəaliyyətin təmin olunmasında əməyi keçən hər kəsə xüsusi minnətdarlığımızı bildiririk. Əminik ki, bundan sonrakı dövrdə də YAŞAT Fondu fərmandan irəli gələn və qarşısında duran vəzifələrin icrası istiqamətində daha praktiki, səmərəli fəaliyyət ortaya qoyacaq.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

# Qazi və şəhid ailələrinə yardımların göstərilməsi dövlətin sosial siyasətidir




Ölkəmizdə şəhid ailələri və vətən müharibəsi iştirakçılarına dövlət qayğısı humanitar missiyanı ehtiva edir. Azərbaycan hər zaman sosial dövlət siyasətinə sadiqdir. Ölkəmizdə həssas təbəqədən olan insanlara hər zaman diqqət və qayğı mövcuddur. İstər I Qarabağ, istərsə də II Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri, qazilərin sosial ehtiyacları dövlət üçün prioritet təşkil edib. Ölkə başçısının sərəncamı ilə yaradılan "YAŞAT" Fondu şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsini daim diqqətdə saxlayacaq. Bu, eyni zamanda dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformadır. Belə bir təsisatın yaradılması bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsinə xidmət edir. Fond ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçular və şəhid olmuş şəxslərin ailələrinin üzvləri ilə sıx təmasdadır. Əsas fəaliyyət istiqamətləri şəhid ailəsi statusu alınana və ya əlillik müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanmasıdır. Eyni zamanda müalicə və psixoloji dəstək xərclərinin ödənilməsidə nəzərdə tutulur. Təhsil alınmasına, habelə əlavə təhsilə, peşə hazırlığının artırılmasına da Fondun böyük dəstəyi mövcuddur.- Fond cəmiyyət və dövlət birliyinin təcəssümü olmaqla yanaşı böyük humanitar missiyanı özündə ehtiva edir. YAŞAT" Fonduna könüllü ödəmələr dayanmadan davam edir. Sözügedən hal cəmiyyətimizdə yaşanan milli birliyin və həmrəyliyin göstəricisidir. Fondun vəsaiti Azərbaycan vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımları, habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. Qazi və şəhid ailələrinə yardımların göstərilməsi dövlətin sosial siyasətidir. İnstitusional təşəbbüslərin mövcudluğu taleyüklü məsələlərin həlli istiqamətində dövlətin strateji yanaşmasından xəbər verir. Azərbaycan xalqı böyük Zəfərlə ərazilərini Ermənistan işğalından azad etdi. Tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoydu. Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi

suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

# ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir səmərə vermədi




Azərbaycan 30 ilə yaxın bir müddətdə münaqişənin dinc yolla həlli üçün bütün imkanlardan istifadə etməyə çalışsa da, məhz Minsk qrupunun səmərəsiz fəaliyyəti, Ermənistanın qeyri-konstruktiv mövqeyi uğur əldə olunmasına imkan vermədi. Əgər həmsədrlər həqiqətən də münaqişənin ədalətli, beynəlxalq hüququn normaları çərçivəsində həllində maraqlı olsaydılar, işğalçı ölkəyə qarşı təzyiqlər göstərilməsi, sanksiyalar tətbiq olunması istiqamətində konkret təkliflərlə çıxış edə bilərdilər. 44 günlük Vətən müharibəsinin nəticələri regionda tamamilə yeni reallıq yaradıb. Bu müharibə yalnız hərbi-siyasi baxımdan deyil, geosiyasi və iqtisadi kontekstdə də yeni situasiya formalaşdırıb. Azərbaycan müharibədə qalib gəlməklə, cənab Prezidentin də qeyd etdiyi kimi, regionda yeni təhlükəsizlik formatı yaradılmasına nail olub. Eyni zamanda, yeni iqtisadi əməkdaşlıq perspektivləri yaranıb. Kommunikasiyaların açılması, çoxtərəfli iqtisadi əlaqələrin qurulması regionun həyatında yeni bir mərhələnin başlanması demək olacaq. Yeni reallıqlar bölgədə yaşayan bütün xalqların həyatında ciddi dəyişikliklərə səbəb ola bilər. Həyata keçiriləcək irimiqyaslı layihələr region ölkələrinin və xalqlarının rifahına əhəmiyyətli töhfələr verəcək. İndi ən əsas məsələlərdən biri bütün ölkələrin, o cümlədən Ermənistanın və erməni xalqının yeni reallığın çağırışlarını düzgün qiymətləndirməsidir. Ermənistan hakimiyyəti və dövləti də keçmişə deyil, gələcəyə baxaraq öz xalqının mənafelərini düşünməli, ölkəsinin inkişafı üçün yaranan imkanlardan istifadə etməlidir. Keçmişə ilişib qalmağın bu ölkəni nə qədər geri atdığını daha aydın dərk etməlidirlər. Cənab Prezident İlham Əliyevin çıxışlarında əksini tapmış fikirlər Azərbaycan dövlətinin yeni reallıqlar fonunda gələcəyə strateji baxışının əsas konturlarını əks etdirir. Cənubi Qafqazın tarixində qarşılıqlı faydalı əməkdaşlıq dövrü başlayır. Bu tarixi anı bütün region ölkələri düzgün qiymətləndirməlidir. Ölkə Prezidentinin çıxışında həm beynəlxalq ictimaiyyətə, həm də Ermənistan rəhbərliyinə açıq, aydın və mövcud vəziyyətə adekvat mesajlar var: "Ermənistan yenidən sabitliyi pozmağa heç bir vəchlə cəhd etməməlidir. Əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, bu dəfə tamamilə darmadağın ediləcəklər. Beynəlxalq ictimaiyyət Ermənistana birbaşa mesaj verməlidir ki, gələcəkdə heç zaman Azərbaycan xalqının hissləri ilə oynamasın, yoxsa ağır cəzadan yaxa qurtara bilməyəcək". Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədrləri 28 ildə bu reallığın da fərqində olmalı idilər. ATƏT-in Minsk qrupu həmsədrləri çox yaxşı bilirlər ki, təcavüzkar Ermənistan ordusu 44 günlükmüharibə müddətində dinc əhalini ağır artilleriya qurğusundan, hətta qadağan olunmuş silahlardan atəşə tutub. Nəticədə 100 mülki şəxs qətlə yetirilib, 416 nəfər isə yaralanıb. Münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupu həmsədrləri də bu faktdan məlumatsız deyillər. Ümumiyyətlə, Minsk qrupu işğal edilmiş ərazilərə rəsmi olaraq iki dəfə missiyalar təşkil etmişdir. Həmsədrlər işğal olunmuş ərazilərə dəfələrlə səfər etmişlər və Ermənistan rejiminin hərbi cinayətlərinin - yaşayış məntəqələrinin tam dağıdılmasının, qeyri-qanuni məskunlaşmanın şahidi olmuşlar. Ancaq 30 il susduğu, terrorçuya "gözün üstə qaşın var" demədiyi kimi, hər dəfə də ağızlarına su aldılar. Nəhayət, Azərbaycan heç kimin köməyi olmadan özü öz problemini hərbi-siyasi yolla həll etdi. Münaqişənin "Hərbi variantı yoxdur" deyənlərə sübut etdi ki, var imiş. Ermənistan və havadarları diz çökməyə məcbur oldu.

***Xocavənd Rayon İcra Hakimiyyəti***

hesabat-2019.qxd 04.05.2021 10:07 Page 7



# 2021-ci ilin yanvar-mart aylarında Xocavənd rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

Ümumi Daxili Məhsul istehsalı-2021-ci ilin yanvar-mart aylarında ölkədə 18 921,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 7,3 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 2,1 faiz artmışdır.ÜDM istehsalının 40,5 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,3 faizi tikinti, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,9 faizi informasiya və rabitə, 0,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,2 faizini təşkil etmişdir.Əhalinin hər nəfərinə düşən ÜDM 1891,1 manata bərabər olmuşdur.İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə-2021-ci il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 37,0 min nəfər və ya 2,3 faiz artaraq 1678,5 min nəfər olmuş, onlardan 915,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 763,0 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.-Muzdla işləyənlərin 19,7 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,3 faizi tikinti, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,7 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.2021-ci ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,8 faiz azalaraq 692,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur. Azərbaycanda demoqrafik vəziyyət-İlin əvvəlindən ölkə əhalisinin sayı 7994 nəfər və ya 0,1 faiz artaraq 2021-ci il mart ayının 1-i vəziyyətinə 10127127 nəfərə çatmışdır. Bir kvadrat kilometrə düşən əhalinin sayı 117 nəfər olmuşdur.Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1002 qadın düşür.Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk iki ayı ərzində ölkədə 20984 doğulmuş körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 13,0 təşkil etmişdir. Doğulanların 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarıdır. Körpələrdən 510-u əkiz, 9-u isə üçəm doğulanlardır.2021-ci ilin yanvar-fevral aylarında ölkədə 13338 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 8,2 təşkil etmişdir.Cari ilin yanvar-fevralında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 5672 nikah və 2417 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5, boşanmaların sayı isə 1,5 olmuşdur.Bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 395 nəfər gələn, Azərbaycandan isə 47 nəfər gedən qeydə alınmış, miqrasiya saldosu ölkə üzrə müsbət 348 nəfər təşkil etmişdir. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-mart aylarında 11,0 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz az sənaye məhsulu istehsal edilmişdir. Bu azalma neft-qaz sektorunda məhsul istehsalının 5,9 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 11,9 faiz artmışdır.Sənaye məhsulunun 63,7 faizi mədənçıxarma sektorunda, 29,3 faizi emal sektorunda, 6,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 12,0 faiz artmışdır.Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 7,3 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 4,8 dəfə, kompüter, elektron və optik məhsulların istehsalı 2,5 dəfə, maşın və avadanlıqların istehsalı 2,4 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 2,2 dəfə, tütün məmulatlarının istehsalı 83,1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 81,4 faiz, kağız və karton istehsalı 32,5 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 27,8 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 15,2 faiz, elektrik avadanlıqlarının istehsalı 14,1 faiz, geyim istehsalı 10,8 faiz, tikinti materiallarının istehsalı 10,0 faiz, qida məhsullarının istehsalı 6,3 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 0,6 faiz artmış, mebel istehsalı 6,3 faiz, hazır metal məmulatlarının istehsalı 11,5 faiz, kimya sənayesi məhsullarının istehsalı 12,5 faiz, neft məhsullarının istehsalı 13,0 faiz, içkilərin istehsalı 13,1 faiz, poliqrafiya məhsullarının istehsalı 62,3 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 63,3 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 97,7 faiz azalmışdır. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,3 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 2,4 faiz artmışdır.

**Xocavənd Rayon İqtisadiyyatının əsas sahələri üzrə** ümumi məhsul buraxılışı-2021-si ilin yanvar-mart aylarında rayon iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 2872,3min manat təşkil etmişdir. Məhsul xidmətlərinin 96,2%-i istehsal sahələrinin, 3,8%-i isə xidmət sahələrinin payına düşmüşdür. 2021-ci ilin 01 aprel vəziyyətinə kənd təsərrüfatı sahəsində 2648,8 min manatlıq və ya ümumi məhsulun 92,2%-i, sənayedə 113,9 min manatlıq və ya ümumi məhsulun 4,0%-i, informasiya və rabitədə 109,6 min manat və ya ümumi məhsulun 3,8%-i qədər məhsul və xidmətlər istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə iqtisadiyyatının bütün sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmində 8,4% artım müşahidə edilmişdir.

**Sənaye müəssisələri üzrə** - Rayonun sənaye müəssisələri tərəfindən yanvar-mart ayları ərzində istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 113,9 min manat olmuşdur. 2021-ci ilin 01 aprel vəziyyətinə sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 89 nəfər təşkil etmiş, hesabat dövrünün əvvəlindən işləyənlərin orta aylıq nominal əmək haqqı 356,0 manat olmuşdur.

Nəqliyyat və anbar təsərrüfatları üzrə- 2021-ci ilin yanvar-mart aylarında rayonda nəqliyyat və anbar təsərrüfat müəssisələri tərəfindən göstərilmiş və istehsal olunmuş məhsulun (işin, xidmətin) həcmi faktiki qiymətlərlə 109,6 min manat olmuşdur. Muzdla işləyənlərin orta siyahı sayı 36 nəfər olmaqla orta aylıq nominal əmək haqqı 305,0 manat təşkil etmişdir.

**Kənd təsərrüfatı üzrə** - Xocavənd rayonunun iqtisadiyyatında taxılçılıq, tərəvəzçilik, bostan məhsulları becərilməsi aparıcı rol oynayır. Hər il olduğu kimi 2021-ci ilin məhsulu üçün keçən ilin payızında suvarılan və suvarılmayan sahələrdə dən və yaşıl yem üçün əkin işləri aparılmışdır. Cari ilin məhsulu üçün 01 aprel vəziyyətinə rayonda təmiz herik şumunu da daxil etməklə 8650 ha şum qaldırılmışdır. Əkin sahələrində 8450 hektar sahədə taxıl əkilmişdir ki, ondan 7300 hektar buğda, 1150 hektar arpa təşkil edir. Cari ilin 01aprel vəziyyətinə 122,8 hektar yazlıq əkin işləri aparılmış və hal-hazırda rayonda yazlıq əkin işləri davam etdirilir.

Hal-hazırda rayonda mövcud mal-qaranın sayı 2622 baş, qoyun və keçinin sayı 20328 baş, bütün növdən olan quşların sayı 23507 baş təşkil edir.

**Demoqrafik göstəricilər üzrə** -2021-ci il 01 aprel vəziyyətinə rayon əhalisinin sayı 44247 nəfərə çatmışdır ki, onlardan da 12776 nəfərini milliyətcə azərbaycanlı olan məcburi köçkün əhali təşkil edir. Əhalinin ümumi artımı 29 nəfər olmuşdur. Cari ilin 01 aprel vəziyyətinə doğulanlar 34 nəfər, ölənlər 30 nəfər, təbii artım 4 nəfər, gələnlər 32 nəfər, gedənlər 37 nəfər, nikah 1, nikahın pozulması isə 3 olmuşdur.

**Təhsil üzrə** - Ümumtəhsil məktəblərdə 2020/2021 tədris ilində rayonda 16 dövlət gündüz ümumtəhsil müəssisəsi fəaliyyət göstərir ki, onlardan da 3 ibtidai, 2 ümumi orta, 11 tam orta məktəb olmuşdur. Ümumtəhsil məktəblərində 2200 nəfər şagird təhsil alır ki, onların da 24 nəfəri (1,1%) ibtidai məktəblərin, 42 nəfəri (1,9%) ümumi orta məktəblərin, 2134 nəfər (97,0%) şagird tam orta məktəblərin payına düşür. Rayonun ümumtəhsil məktəblərində 582 nəfər çalışır və onların da 430 nəfərini və ya 73,9%-ni qadınlar təşkil edir. Müəllimlərin sayı (məktəb rəhbərlərindən başqa) 296 nəfər olmuşdur. Rayonun ümumtəhsil məktəblərində çalışan işçilərin orta aylıq əmək haqqı 459,8 manat təşkil etmişdir.

**Mədəniyyət və Turizm üzrə** - Rayon əhalisinə 15 klub və mədəniyyət evləri, 5 kitabxana xidmət göstərir. Mədəniyyət və Turizim şöbəsi işçilərinin sayı 144 nəfər olmaqla orta aylıq əmək haqqı 501,0 manat təşkil etmişdir. İşçilərinin 93 nəfəri (64,6%) qadınlardır.

**Səhiyyənin göstəriciləri üzrə** -Rayon Mərkəzi xəstəxanasında ümumilikdə 267 nəfər fəaliyyət göstərir. Xəstəxanada 17 həkim, orta tibb heyəti 111 nəfər, 139 nəfər isə digər peşələr üzrə olmaqla işçi heyəti çalışır. Səhiyyə İşçilərinin 217 nəfəri (81,3%) qadınlardır. Onların orta aylıq əmək haqqı 736,0 manat təşkil etmişdir.

İqtisadiyyatda işləyənlərin sayı və əmək haqqı barədə olan məlumata əsasən 2021-ci il aprelin 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1366 nəfər olmuş, onlardan 1267 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 99 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 42,6%-i təhsil, 6,5%-i sənaye, 19,5%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 9,3%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,6%-i nəqliyyat və anbar təsərrüfatı, 1,5%-i peşə, elmi və texniki fəaliyyət, 10,5% istirahət, əyləncə və incəsənət sahəsində, 2,8%-i kənd təsərrüfatı, 4,7%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. Rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 535,0 manat olmuşdur.

**Yeni iş yerləri üzrə** - 2021-ci ilin 01 aprel vəziyyətinə rayonda 10 yeni iş yeri açılmışdır. Onlardan 3 müəssisə hüquqi şəxslərdə 8 mövcud müəssisə və təşkilatlarda olmaqla, 2 yeni iş yeri fiziki şəxslərdə olmuşdur.

**Büdcənin gəlirləri üzrə** - Xocavənd Rayon büdcəsinin gəlirləri 2021-ci ilin yanvar-mart aylarında 249,7 min manat təşkil edilmişdir.

*Fərnad Tahirov,*
*Xocavənd Rayon Statistika İdarəsinin rəisi*

# Döyüşlərdə iştirak etmiş hərbçilərə psixoloji yardım göstərilir



Nazirlər Kabinetinin 13 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı xəsarət (yaralanma, travma, kontuziya) almış hərbi qulluqçuların tibbi-sosial ekspertizası ilə bağlı bəzi məsələlər barədə" Qərarına əsasən, qeyd edilən tibbi-sosial ekspertizanın aparılması məsələlərinin operativ, vaxtında, keyfiyyətlə və mərkəzləşmiş şəkildə həlli məqsədilə komissiya yaradılıb. Qərara əsasən komissiyaya Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri sədrlik edəcək. Komissiyanın tərkibinə Azərbaycan Respublikası müdafiə, səhiyyə nazirlərinin müavinləri, Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri, Tabeliyində hərbi-həkim komissiyaları və həkim-uçuş komissiyaları olan dövlət orqanlarının səlahiyyətli şəxsləri daxil edilib. Komissiya 2020-ci il 27 sentyabr tarixindən başlayan hərbi əməliyyatlar zamanı xəsarət (yaralanma, travma, kontuziya) almış hərbi qulluqçuları birgə əyani müayinədən keçirməklə mərkəzləşdirilmiş qaydada xəsarətin (yaralanmanın, travmanın, kontuziyanın), xəstəliklərin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi ilə bağlı sənədlərin sürətlə rəsmiləşdirilməsini təmin edəcək. Həmçinin komissiya əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişləri "Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin reyestri"-nə daxil edəcək və əyani müayinə keçirməklə əlilliyin qiymətləndirilməsini aparacaq. Komissiyaya əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların reabilitasiya vasitələri ilə növbədənkənar təmin edilməsi, onların reabilitasiyası ilə əlaqədar zəruri tədbirlərin görülməsi də tapşırılıb. Qeyd edilən tədbirlərin birgə həyata keçirilməsi üçün Qərarla komissiyadakı dövlət orqanlarının nümayəndələrindən, mütəxəssislərdən, o cümlədən ekspertlərdən ibarət işçi qrupları da yaradılacaq. Nazirlər Kabinetinin bu gün qəbul etdiyi digər qərarla Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmiş hərbi qulluqçulara və şəhid ailələrinə operativ, vaxtında, keyfiyyətlə və əlaqəli şəkildə psixoloji yardım göstərilməsini təmin etmək məqsədilə də komissiya yaradılıb.

*Bəhruz Məmmədov:*

# "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir"



Xatırladaq ki, hələ müharibədən əvvəl Ermənistanın hərbi siyasi dairələri Azərbaycana qarşı təhdidlərlə çıxış edirdilər. Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi düşmənin işğal siyasətindən xəbər verən addımlar idi. Bunun ardınca isə düşmən özündən razı halda bildirirdi ki, müharibə başlasa erməni tankları Bakıya kimi gələcəklər. Bəli, erməni tankları Bakıya gəldilər. Lakin məğlub olaraq, Azərbaycan Ordusunun qəniməti kimi. Ötən ilin dekabrında Zəfər paradında ictimaiyyətə təqdim olunan həmin tanklar indi Hərbi Qənimətlər Parkından Ermənistanın hərbi məğlubiyyətini bütün dünyaya nümayiş etdirir. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq". Hərbi Qənimətlər Parkı Prezident İlham Əliyevin bu sözlərinin ifadəsidir. Bu park müharibənin bütün mənzərəsini kompleks şəkildə tamamlayır.Buranı ziyarət edən hər kəs Azərbaycanın qələbəsinə, bu qələbəyə gedən yolda ordumuzun rəşadətinə şahidlik edəcək. Eyni zamanda bu park erməni işğalçılarının insanlıq əleyhinə törətdikləri cinayətləri faktlarla dünyaya çatdırır. Azərbaycana gələn bütün xarici qonaqlar bu parkı ziyarət edəcəklər və bu, onların Ermənistanın işğal siyasəti ilə bağlı bilgilərini artıracaq, ölkəmizin qələbəsi barədə daha ətraflı məlumatlar əldə etmələrinə imkan yaradacaq. Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında, Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhənin qarşısında deyib. Dövlətimizin başçısı bildirib ki, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi: "Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya, Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik. Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!"

***Bəhruz Məmmədov,***
***Memarlıq və tikinti şöbəsinin aparıcı məsləhətçisi***

*Asim Rüstəm:*

# "24 aprel 1915-ci ildə həqiqətdə nə baş verdi?"



***Ermənilər 24 apreli bütün dünyada qondarma "soyqrım günü" elan edərək adətən süni bir tarix yaradmışlar. Sadəcə Erməni deyil, başda Amerika və Avropa ölkələri olmaqla bir çox ölkə parlamentinin "soyqrımı anma günü" olaraq qəbul etdikləri 24 aprel 1915-ci ildə həqiqətdə nə baş verdi?***

1-ci dünya müharibəsinin başlanması və Osmanlı dövlətinin müttəfiq dövlətlərinə qarşı Almaniyanın yanında savaşa girməsi, erməni komitə üzvləri tərəfindən hədəflənən müstəqil Ermənistanın qurulabilməsi üçün böyük bir fürsət olaraq görülürdü. 1-ci dünya müharibəsinə qədər böyük ölçüdə silahlandırılan ermənilər müharibə başladığında vətəndaşı olduğu Osmanlı dövlətinə qarşı savaşaraq müstəqil Ermənistanı qurmaq məqsədilə başda Rusiya olmaq üzrə müttəfiq dövlətləri ilə iş birliyi içində olmuşdur. Osmanlı ordusunun Sarıqamışda məğlub olması və arxasından İngiltərə və Fransanın Çanaqqalaya hücum etməsi paralel olaraq erməni komitə üzvləri savaşan Osmanlı ordusunu arxadan vurmaq və təchizat yollarını kəsmək üçün hərəkətə keçmişlər, silahlı üsyanlara başlamışlar. Ermənilər 1-ci dünya müharibəsinin başlarında könüllü birliklər quraraq Rus ordusuna qatılıb və vətəndaşı olduqları Osmanlı ordusuna qarşı savaşmışlar. Şərqi Anadolu bölgəsində müsəlmanlara qarşı qətliyamlar törətmişlər. Beləliklə, bu cür hadisələrlə Osmanlı dövlətinə arxadan zərbə vurmaq məqsədi ilə müxtəlif qruplaşmalar olmuşdur. Lakin Osmanlı hökuməti hər dəfəsində qanuni yollarla bu qruplaşmaların qarşısını alaraq müəyyən addımlar atmışdır. 1915-ci il fevralın 27-də Osmanlı Ordusu Baş Komandanı hərbi hissələrə: "Ermənilər tərəfindən tutulan silahlar, bombalar və bəzi şifrəli mesajlar inqilabın hazırlanmasına dəlil kimi qəbul edilir, bu səbəbdən də erməni əsgərləri silahlı xidmətlərdə istifadə edilmir və lazımi təlimatlar alınır" istiqamətində bir yazı göndərdi.

Göndərilən əmrdə Osmanlıya sadiq olanların bu tətbiqdən azad edilməli olduğu bildirildi. 24 aprel tarixində alınan qərar, Osmanlıların 27 May 1915-ci ildə qəbul etdiyi Göndərmə və Yerləşmə Qanunundan ayrı bir qərardır. Osmanlı rəhbərliyi Anadoluda baş verən hadisələrin qarşısını almaq üçün 24 aprel tarixli bir qərar verdi. Bu qərardan əvvəl edilən xəbərdarlıqlara baxmayaraq, Anadoludakı silahlı erməni təşkilatlarının Osmanlı İmperiyasına qarşı kəşfiyyat və hücum fəaliyyətləri dayandırıla bilmədi. Dünya müharibəsində olan Osmanlı İmperiyası bu qərarı hücumlara məruz qalan vətəndaşlarını qorumaq və ona qarşı fəaliyyətlərin qarşısını almaq üçün həyata keçirdi. Qərarın yalnız təşkilat üzvlərini zərərli fəaliyyətlərlə əhatə etməsi və bunun İstanbulda yaşayan digər ermənilərə şamil edilməməsi, 24 aprel tarixinin qondarma soyqırımla əlaqələndirilməsini etibarsız edir.

Beləliklə, yüz il bundan əvvəl baş vermiş hadisələr yanlış şəkildə təqdim edilərkən, 30 il bundan əvvəl Ermənistan tərəfindən Xocalıda azərbaycanlılara qarşı törədilən soyqırımına hələ də ədalətli qiymət verilməməsi, qərəzlilik və ikili standart nümunəsidir.

Son olaraq Cənab Prezidentin də dediyi kimi " Əgər Türkiyə Ermənistana soyqırım törədmiş olsa idi bu gün bunu dilə getirecek bir nəfər belə olsun erməni qalmazdı"

***Asim Rüstəm,***
***Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı məsləhətçisi***

Təsisçi:
Xocavənd Rayon
İcra Hakimiyyəti
Baş redaktor:
Ruslan Şirinov

Hesab №: AZ73AIIB33080019444000298140
VÖEN: 7900031641
"Kapital Bank" ASC Beyləqan Filialı

Ünvan:
Yeni Xocavənd
qəsəbəsi,
Tiraj:1000,
Sifariş 765

Mob: (051)720-21-71
www. Xocavend-ih.gov.az
www. Xocavendmks.com
www. Garadaghli.org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Son dakika" mətbəəsində çap olunmuşdur.